**Kazus**

Bazar günü Amsterdamda keçirilən bir bayram zamanı R.M. bir nəfər motoroller sahibini odlu silahla hədələyərək motorolleri ondan alıb sürüb getdi. Motoroller sahibi bu barədə yaxınlıqda olan 2 nəfər polis patruluna məlumat verdi, onlar törədilmiş soyğunçuluq faktı barəsində ratsiya ilə polis məntəqəsindəki növbətçiyə məlumat verdilər. Növbətçi polis əməkdaşı da öz növbəsində ərazidəki polis patrullarına həyacan siqnalı verdi. Motoroller sahibinin xəbər verdiyi 2 polis əməkdaşı soyğunçunu yaxalamaq üçün onun arxasınca getdilər, lakin o, çox uzaqlaşmış olduğundan onu yaxalaya bilmədilər.

Təxminən 5 dəqiqə sonra xidməti maşınları ilə növbədə olan 2 nəfər başqa polis əməkdaşı ratsiya vasitəsilə onlara təsvir edilmiş əlamətlərə uyğun gələn şəxsin sürdüyü motorollerin yaxınlıqda olan hündür binanın qarşısında dayandığını gördülər. Onlar maşını saxladılar. Polis əməkdaşlarından biri (bundan sonra 1-ci polis əməkdaşı) maşından düşüb motoroller sürən şəxsə tərəf qaçdı və onu həbs etməyə cəhd etdi. Onların arasında qısamüddətli savaşma oldu, son nəticədə R.M. polisin əlindən qurtula bildi.

1-ci polis əməkdaşı M.R.-in kəmərindən tapança çıxardığını gördü. 1-ci polis əməkdaşı əlində tutduğu ikikanallı ratsiyanı aşağı saldı, xidməti tapançasını çıxardı və M.R.-ə silahını yerə endirməsini əmr etdi. M.R. tabe olmadı. Sonra patrul maşınının sürücüsü (bundan sonra 2-ci polis əməkdaşı) oraya yaxınlaşdı. Sonradan deyilənə görə M.R. tapançasını qaldıraraq 2-ci polis əməkdaşına tuşlamış və 2-ci polis əməkdaşı xidməti tapançasını çıxarıb atəş açmışdı. Güllə M.R.in boğazına dəymişdi.

M.R. ilə polis əməkdaşları arasında olan münaqişə yaxınlıqda olan yeganə şahid cənab P.H. tərəfindən müşahidə edilmişdi.O, insidenti hündür binanın beşinci mərtəbəsinin eyvanından izləmiş, lakin tapançalar çıxarıldıqda əyilərək eyvanın məhəccərinin arxasında gizlənmiş, buna görə də atəş açıldığını görməmişdi.

Bir neçə nəfər başqa şəxs ən azı əlli metr məsəfədən bu münaqişənin və atəşin şahidi olmuşdu. Sonradan bu şahidlərin hamısı M.R.-in tapançasını görmədikləri barədə ifadə verdilər.

2-ci polis əməkdaşı ratsiya vasitəsilə polis məntəqəsinə bir nəfəri güllə ilə vurduğunu xəbər verib təcili yardım göndərilməsini xahiş etdi. Təxminən 14 dəqiqə sonra təcili yardım briqadası hadisə yerinə gəldi və M.R.-in artıq öldüyünü müəyyən etdi.

Polis məntəqəsinə qayıtdıqdan sonra 2-ci polis əməkdaşının şəhər polis qüvvələrinin komandiri polis komissarı gördü və və onu sakitləşdirərək yardımını təklif etdi. Sonradan ərizəçilər iddia etdilər ki, kütləvi tirajla çap olunan gündəlik «De Teleqraaf» qəzeti polis komissarının dediyi bu sözləri sitat gətirdi: «nə qədər əlavə istintaq komissiyası yaradılırsa yaradılsın, mən onların bu işə müdaxiləsinə imkan verməyəcəyəm».

M.R.-in cəsədi aparılmazdan əvvəl hadisə yerinə gəlmiş müstəntiq onu nəzərdən keçirdi və dövlət prokuroruna hesabatında bildirdi ki, ölümün səbəbi odlu silahdan açılan və həyati əhəmiyyətli boğaz orqanlarına xəsarət yetirən atəş olub.

Yerli polis hadisə yerinə gəlib çıxdı, hadisə yerini mühasirəyə aldı, şahid P.H.-ın və digər şahidlərin adlarını götürdü. Şəhər polis qüvvələrindən olan məhkəmə-tibb ekspertləri sübutları əsas etibarı ilə fotoşəkillər formasında götürdülər, sonradan onlar istintaq materiallarına əlavə olundu. Ekspertlər M.R.-in bədənindən keçən və pəncərə şüşəsini qıran , amma hər hansı başqa iz qoymayan gülləni və M.R.-in tapançasını tapdılar, tapança dolu və atəşə hazır vəziyyətdə idi.

Həmin gecə şəhər polisinin xüsusi əməliyyatlar bölməsi hadisənin baş verdiyi binada yaşayan, evlərində olan bütün şahidləri dindirdi. Sonrakı günlərdə şəhər polis qüvvələrinin əməkdaşları müxtəlif şahidlərin ifadələrini, o cümlədən hadisədən bir neçə gün sonra 1-ci və 2-ci polis əməkdaşlarının ifadələrini aldılar.

1-ci və 2-ci polis əməkdaşları insidentdən bir neçə gün sonra qulluq vəzifələrinin icrasına qayıtdılar.

Araşdarma bitdikdən sonra dövlət prokuroru M.R.-in valideynlərinə məktub yazaraq məlumat verdi ki,  atəşin açılmasının özünümüdafiə hərəkəti olduğu qənaətinə gəlib, buna görə də 2-ci polis əməkdaşına qarşı cinayət təqibinə başlamamağı qərara alıb. Ərizəçilər cinayət

təqibinə başlamamaq haqqında qərardan Apellyasiya məhkəməsinə şikayət verdilər. Onlar şikayətdə göstərdilər ki, əldə olunan məlumatlar 2-ci polis əməkdaşının M.R.-ə atəş açmaq üçün kifayət qədər əsaslarının olduğu barədə nəticə çıxarmağa əsas vermir. Onlar həmçinin, istintaqın bəzi mühüm hissələrinin şəhər polis qüvvələri tərəfindən aparıldığını, bu səbəbdən istintaqın «müstəqil» və «səmərəli» olmadığın iddia etdilər. Digər şikayətlərində ərizəçilər 1-ci və 2-ci polis əməkdaşının hadisədən yalnız bir neçə gün sonra dindirilməsinə, atəş açılandan sonra hadisə yerinə gəlmiş bütün polis əməkdaşlarının dindirilməməsinə, güllənin trayektoriyasının müəyyən edilməməsinə, 1-ci və 2-ci polis əməkdaşlarının əllərində atəşdən qalmış barıt izlərinin götürülüb mühafizə edilməməsinə, hadisənin təkrar edilməsi üzrə eksperimentin aparılmamasına, patoloji-anatomik müayinənin rəyində güllənin doğurduğu giriş və çıxış yaralarını göstərən təsvirlərin və fotoşəkillərin olmamasına və s. məsələlərə toxundular.

Apellyasiya məhkəməsi keçirdiyi qapalı iclasda dövlət prokurorunun cinayət işinə başlamamaq haqqında qərarından ərizəçilərin verdiyi şikayəti rədd etdi və belə qənaətə gəldi ki, 2-ci polis əməkdaşı ölümlə nəticələnə bilən silahişlətmə təhlükəsini dəf etmək məqsədilə hərəkət edib və qanuni özünümüdafiə çərçivəsində davranıb.

**Cavab: RAMSAHAİ VƏ BAŞQALARI NİDERLANDA QARŞI Qərar 15 may 2007**

**QƏRAR**

1. Yekdilliklə qərara alır ki, Moraviya Ramsahayinin güllələnməsi Konvensiyanın 2-ci maddəsini pozmayıb;
2. Dörd səsə qarşı on üç səslə qərara alır ki, Moraviya Ramsahayinin ölümü ilə bağlı araşdırma lazımi qaydada aparılmadığına görə Konvensiyanın 2-ci maddəsi pozulub;
3. Bir səsə qarşı on altı səslə qərara alır ki, Moraviya Ramsahayinin ölümü ilə bağlı araşdırma kifayət qədər müstəqil olmadığına görə Konvensiyanın 2-ci maddəsi pozulub;
4. Dörd səsə qarşı on üç səslə qərara alır ki, Moraviya ramsahayinin ölümünə dair polis istintaqına nəzarət edən dövlət prokurorunun mövqeyi ilə bağlı Konvensiyanın 2-ci maddəsi pozulmayıb;
5. Yekdilliklə qərara alır ki, Moraviya Ramsahayinin qohumlarının araşdırmada iştirak dərəcəsi ilə bağlı Konvensiyanın 2-ci maddəsi pozulmayıb;
6. İki səsə qarşı on beş səslə qərara alır ki, Apellyasiya Məhkəməsindəki icraatla bağlı Konvensiyanın 2-ci maddəsi pozulmayıb;
7. Dörd səsə qarşı on üç səslə qərara alır ki, Konvensiyanın 6-cı maddəsi bü işə tətbiq edilə bilməz;
8. Yekdilliklə qərara alır ki, Konvensiyanın 13-cü maddəsi üzrə hər hansı ayrıca məsələ meydana çıxmır.

*Hazırladı: Lalə Fərzəliyeva*